**“Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. həmin Dövlət Proqramında qeyd olunan tədbirlərin, beynəlxalq təcrübə nəzərə alınmaqla, əsas icra indikatorlarını üç ay müddətində müəyyən etsin;

2.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 aprel 2019-cu il
№ 1143

**Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün**

# D Ö V L Ə T P R O Q R A M I

## 1. Giriş

Azərbaycan Respublikasında əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq mallarına tələbatının daha dolğun və davamlı təmin edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər öz müsbət nəticələrini verməkdədir. Bununla yanaşı, ölkədə qida və kənd təsərrüfatı məhsullarının istehsal və idxal-ixrac həcminin artması, istehlakçıların sağlamlığının qorunması və hüquqlarının müdafiəsi kimi şərtlər qida təhlükəsizliyi sahəsində dövlət tənzimləməsinin və nəzarət sisteminin təkmilləşdirilməsini zəruri edir.

Ölkə iqtisadiyyatının davamlı inkişaf prinsipləri əsasında şaxələndirilməsi və inklüzivliyinin təmin edilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə dəyər zəncirinin bütün mərhələlərini əhatə edən, risklərin təhlili yanaşmasına əsaslanan təkmil qida təhlükəsizliyi sisteminin formalaşdırılmasını nəzərdə tutan konkret prioritetlər və tədbirlər müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanının 5.5-ci bəndinin icrası məqsədilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramının icrası üçün 12 əsas istiqamət üzrə qarşılıqlı əlaqəli tədbirlər müəyyənləşdirilmişdir.

## 2. Qida təhlükəsizliyi sahəsində qlobal meyillər

Dünyanın hər bir qitəsində qida mənşəli xəstəliklərə yoluxma və qida zəhərlənməsi hallarının artması qeydə alınır. Ümumdünya Səhiyyə Təşkilatının (bundan sonra - ÜST) 2017-ci il üçün hesabatına əsasən, dünyada hər il 600 milyon insan, yəni dünya əhalisinin hər on nəfərindən biri qida məhsullarından zəhərlənir. Hər il qida məhsullarından zəhərlənənlərin 420 min nəfəri ölür ki, bunun da 125 mini və ya 30 faizi beş yaşınadək uşaqlardır.

Beləliklə, qida mənşəli xəstəliklər və zəhərlənmə halları həm əhalinin sağlamlığına və rifahına mənfi təsir göstərir, həm də fərdlər, ailələr, icmalar, təsərrüfat subyektləri və ölkələr üçün ağır iqtisadi nəticələrə gətirib çıxarır. Bu baxımdan, qida təhlükəsizliyi cəmiyyətin inkişafında, gələcək nəsillərin sağlamlığında, insan genofondunun

qorunmasında, iqtisadi məhsuldarlığın təmin olunmasında xüsusi əhəmiyyət kəsb edən mühüm bir sahədir.

Son illərdə bütün dünyada qida təhlükəsizliyi ilə bağlı yeni çağırışlar meydana gəlməkdədir. Qida və kənd təsərrüfatı məhsulları ticarətinin qloballaşması bu məhsulların daha əlçatan və rəqabətədavamlı olması, ölkəyə xarici valyuta axınının artması kimi faydalar verməklə yanaşı, qida mənşəli xəstəliklərin daha geniş miqyasda başvermə və yayılma ehtimalını da artırır.

Bundan əlavə, qida mənşəli patogenlərin mikrob əleyhinə preparatlara qarşı müqavimətinin artması, qida təchizatında yeni müəyyənləşdirilmiş mikroorqanizmlərin və kimyəvi maddələrin təhlükə yaratması, eləcə də dünya əhalisinin qidalanma vərdişlərinin dəyişməsi kimi məsələlər müşahidə olunur.

Qeyd olunan səbəblər bütün dünyada qida təhlükəsizliyini xüsusi əhəmiyyətli məsələyə çevirmiş və bu sahədə müvafiq qurumlar yaradılmışdır. Belə ki, qida məhsulları istehlakçılarını bütün mövcud və potensial risklər barədə obyektiv, müstəqil və elmi cəhətdən əsaslandırılmış şəkildə məlumatlandırmaq məqsədilə 2002-ci ildə Avropa İttifaqında qida və yem təhlükəsizliyi ilə əlaqədar risklərin qiymətləndirilməsini həyata keçirən əsas qurum - Avropa Qida Təhlükəsizliyi Təşkilatı (EFSA) təsis edilmişdir.

Dünyada qida təhlükəsizliyi sahəsində idarəetmə və nəzarət tədbirlərinin həyata keçirilməsində son dövrlərdə konseptual dəyişikliklər baş verir. Bəzi inkişaf etmiş ölkələr qida təhlükəsizliyini tənzimləmək üçün resursları yüksək riskli sahələrə və spesifik problemlərin həllinə yönəldirlər.

Müasir qida təhlükəsizliyi sistemlərinin işlənib hazırlanmasında, onların strukturunda, tətbiqində və fəaliyyətində bir sıra fərqli prinsiplər və təmayüllər nəzərə çarpır.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (bundan sonra - FAO) qida məhsullarının təhlükəsizliyinin və keyfiyyətinin təmin olunmasında kompleks yanaşmanın tətbiqi məqsədilə qida təhlükəsizliyinə nəzarət sistemlərinin əsas hədəflərini hazır məhsulun yoxlanılmasına deyil, qida zəncirinin bütün mərhələlərinə, yəni ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya proseslərinə nəzarətin həyata keçirilməsini tövsiyə edir. Bu prinsipin tərəfdarları qida zəncirinin bütün mərhələlərində profilaktik tədbirlər görülməsinin son mərhələdə yoxlamalar aparılaraq normalara uyğun olmayan məhsuldan imtina edilməsindən daha səmərəli və effektiv olduğunu bildirirlər.

FAO və ÜST qida təhlükəsizliyi ilə bağlı bütün məsələlərdə elmə əsaslanan risklərin təhlilini əsas yanaşma kimi irəli sürürlər. Risklərin qiymətləndirilməsi insan sağlamlığı və həyatı üçün təhlükə ehtimalının və onun ciddiliyinin müəyyən edilməsində vacib amildir. Risklərin qiymətləndirilməsi qida mənşəli təhlükələrin xarakterinə uyğun olaraq onların qarşısının alınması, aradan qaldırılması və ya ləğv edilməsi üçün təsirli müdaxilə tədbirlərinin və strategiyaların müəyyənləşdirilməsinə imkan yaradır.

Nəzarət funksiyasını həyata keçirən qurumun elmi bazasının olması qida təhlükəsizliyi ilə bağlı düzgün və obyektiv qərarların qəbul edilməsi nöqteyi-nəzərindən zəruridir. Bu məqsədlə nəzarət funksiyasını həyata keçirən qurumun tabeliyində elmi

komitələr yaradılır. Elmi komitələrin rolu risklərin qiymətləndirilməsi zamanı texniki sualları, qida standartlarına və qaydalarına, tənzimlənmənin təsirini ölçən monitorinq və qiymətləndirməyə dair məsələləri əhatə edən tövsiyələr verməkdən ibarətdir.

Avropa İttifaqına üzv dövlətlərdə və digər inkişaf etmiş ölkələrdə qida sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri məhsulların təhlükəsizliyinə görə birbaşa məsuliyyət və öhdəlik daşıyırlar, tənzimləyici qurumlar isə nəzarət tədbirlərini həyata keçirməklə icranın vəziyyətini yoxlayırlar.

Qida təhlükəsizliyinin təmin olunmasında beynəlxalq təşkilatların və müvafiq konvensiyaların rolu böyükdür. FAO, ÜST, Kodeks Alimentarius Komissiyası, "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiya, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı milli qida təhlükəsizliyi orqanları ilə əməkdaşlıq edir, qida təhlükəsizliyi proqramlarının beynəlxalq səviyyədə qəbul edilmiş qərar və tövsiyələrə, habelə beynəlxalq qida standartlarına uyğunlaşdırılmasında onlara kömək göstərirlər.

## 3. Azərbaycanda qida təhlükəsizliyi sahəsində mövcud vəziyyət

Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar mövcud normativ hüquqi aktların və maddi-texniki bazanın təkmilləşdirilməsinə, nəzərəçarpan nailiyyətlər əldə olunmasına geniş imkanlar yaratmışdır.

İndiyədək ölkədə ərzaq təminatı ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 2 mart tarixli 640 nömrəli Sərəncamı ilə 2001–2010-cu illəri əhatə edən "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı", 2008-ci il 25 avqust tarixli 3004 nömrəli Sərəncamı ilə "2008–2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmiş, həmçinin bu islahatların davamı olaraq məqsədli proqramlar, konsepsiyalar və digər sənədlər qəbul olunmuşdur.

Ölkənin ərzaq təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sayəsində (ilkin məlumatlara əsasən) 2018-ci ildə əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi ət və ət məhsulları üzrə 82,7 faiz, yumurta üzrə 101,5 faiz, süd və süd məhsulları üzrə 86,7 faiz, balıq və balıq məhsulları üzrə 87,8 faiz, kartof üzrə 92,5 faiz, tərəvəz üzrə 113,8 faiz, bostan məhsulları üzrə 99,7 faiz, meyvə və giləmeyvə üzrə 123,1 faiz, şəkər üzrə 81,2 faiz, un üzrə 95,9 faiz, meyvə və tərəvəz konservləri üzrə 91,7 faiz, kərə yağı üzrə 71,1 faiz, marqarin üzrə 98,8 faiz, duz üzrə 103,1 faiz təşkil etmişdir.

Qida təhlükəsizliyi ilə bağlı vahid səlahiyyətli qurum yaradılanadək ölkədə qida təhlükəsizliyi müxtəlif dövlət orqanları və qurumları tərəfindən məhsulların dövlət gigiyena qeydiyyatına alınması, gigiyenik sertifikatın verilməsi, milli standartlara uyğunluğun təsdiq edilməsi üçün sertifikatlaşdırmanın aparılması, habelə risklərə əsaslanmayan dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsi yolu ilə təmin edilirdi. Qida təhlükəsizliyinin təmin olunması baxımından yekun məhsulun sertifikatlaşması tələb

olunurdu və dövlət nəzarəti zamanı sertifikatın mövcudluğuna diqqət yetirilirdi, nəzarət tədbirləri risklərə əsaslanmırdı, tətbiq olunan milli standartların əksəriyyəti müasir və beynəlxalq tələblərə cavab vermirdi və bu istiqamətdə əlavə tədbirlərin görülməsinə ehtiyac duyulurdu. Bunlarla yanaşı, qida təhlükəsizliyinə nəzarət və dövlət tənzimləməsi sahəsində paralellik və təkrarçılıq hallarına da rast gəlinirdi.

Ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, bu sahədə şəffaflığı artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi və strukturu təsdiq edilmiş, Agentliyin tabeliyində publik hüquqi şəxs statuslu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılmışdır.

Qida təhlükəsizliyi sahəsində aparılan islahatların davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 28 nömrəli Fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsində qida zəncirinin bütün mərhələlərinə nəzarətin mərkəzləşdirilmiş şəkildə aparılmasına imkan yaradan bir sıra dəyişikliklər edilmiş, bu islahatlar çərçivəsində qida təhlükəsizliyi sahəsində mövcud olan normativ hüquqi baza təkmilləşdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə Nizamnaməsi və strukturu təsdiq edilən Qida Təhlükəsizliyi İnstitutunun əsas fəaliyyət istiqamətləri qida məhsullarının təhlükəsizliyi sahəsində elmi-praktiki araşdırmalar aparılması, risklərin elmi prinsiplərə əsaslanmaqla qiymətləndirilməsi, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların layihələrinin hazırlanması, qida məhsullarının təhlükəsizlik və minimum keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat xidmətləri göstərilməsi, qida təhlükəsizliyi sahəsində əhalinin məlumatlandırılması və maarifləndirilməsi kimi müəyyənləşdirilmişdir.

Bundan əlavə, qida təhlükəsizliyinə nəzarət sahəsində aparılan islahatlara uyğun olaraq, müvafiq dövlət orqanlarının mövcud maddi-texniki bazaları və laboratoriyaları Qida Təhlükəsizliyi Agentliyinin balansına verilmişdir.

Dövlət Proqamı qida məhsullarının təhlükəsizliyinə və minimum keyfiyyət göstəricilərinə dair tələblərin normalaşdırılmasına, məhsulların sertifikatlaşdırılmasının təkmilləşdirilməsinə, qida zənciri mərhələlərində fəaliyyət göstərən subyektlərin qeydiyyata alınması və dövlət reyestrinin aparılmasına, qida təhlükəsizliyinin təmin edilməsində təsərrüfat subyektlərinin rolunun və məsuliyyətinin artırılmasına, eləcə də qida təhlükəsizliyi sahəsində risklərə əsaslanan dövlət nəzarəti sisteminin

formalaşdırılması istiqamətində görülən tədbirlərin daha sistemli və intensiv həyata keçirilməsinə zəmin yaradacaqdır.

## 4. Strateji baxış

Dövlət Proqramı üzrə 2025-ci ilədək strateji baxış əhalinin sağlam və təhlükəsiz qida ilə tam təmin edilməsinə və bununla da qida mənşəli xəstəliklərin nəzərəçarpacaq dərəcədə azalmasına, habelə kənd təsərrüfatı və qida məhsullarının məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılmasına, inkişaf etmiş ölkələrin bazarlarına ixrac həcminin artırılmasına nail olmağı nəzərdə tutur.

## 5. Dövlət Proqramının məqsədləri

Dövlət Proqramının əsas məqsədləri aşağıdakılardan ibarətdir:

5.1. qida təhlükəsizliyi sahəsində norma və standartların beynəlxalq tələblərə uyğunlaşdırılması;

5.2. əhalinin təhlükəsiz və keyfiyyətli qida ilə təminatının yaxşılaşdırılması, bununla da qida mənşəli xəstəliklərin nəzərəçarpacaq dərəcədə azaldılması;

5.3. qida təhlükəsizliyinin və keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görməklə, onların rəqabətqabiliyyətliliyinin və xarici bazarlara ixrac potensialının artırılması;

5.4. kənd təsərrüfatında istifadə olunan aqrokimyəvi maddələrə, bitki mühafizəsi vasitələrinə və baytarlıq preparatlarına nəzarət tədbirlərini gücləndirməsi, habelə onlardan düzgün istifadəyə dair maarifləndirmə işlərinin aparılması;

5.5. qida subyektlərinin fəaliyyətinin qida təhlükəsizliyi üzrə qanunvericiliyin tələblərinə uyğunluğunun sahibkarlarla əməkdaşlıq şəraitində təmin edilməsi;

5.6. qida təhlükəsizliyinin təmin olunması üçün ictimai nəzarət mexanizmlərinin səmərəli tətbiqi və istehlakçıların hüquqlarının qabaqcıl təcrübələr əsasında təmin edilməsi;

5.7. qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq, ölkədə heyvan və bitki sağlamlığının təmin edilməsi;

5.8. ölkədə qida məhsulları sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün əlverişli və sağlam biznes mühitinin formalaşdırılmasına dəstək göstərilməsi.

## 6. Dövlət Proqramının əsas istiqamətləri

Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı planlaşdırılan bütün icra tədbirləri aşağıda qeyd olunan prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır:

6.1. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, qida təhlükəsizliyi ilə bağlı milli normativ hüquqi bazanın təkmilləşdirilməsi;

6.2. qida təhlükəsizliyinın təmin edilməsi istiqamətində infrastruktur təminatının yaxşılaşdırılması;

6.3. qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi;

6.4. qida təhlükəsizliyi sahəsində elmi sübutlara əsaslanan və beynəlxalq tələblərə cavab verən risklərin təhlili sisteminin formalaşdırılması;

6.5. qida təhlükəsizliyinin təmin edilməsi üçün müasir tələblərə cavab verən qeydiyyat, təsdiq və sertifikatlaşdırma sisteminin qurulması və bu sahədə bir pəncərə prinsipinin tətbiqi;

6.6. qida təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması;

6.7. heyvan sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması;

6.8. bitki sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması;

6.9. qida təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət-özəlsektor əməkdaşlığının inkişaf etdirilməsi;

6.10. qida təhlükəsizliyi sahəsində müasir texnologiyaların və innovativ həllərin tətbiqi;

6.11. qida təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;

6.12. qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sağlam qidalanmanın təşviqi və istehlakçı hüquqlarının qorunması.

Bu istiqamətlər üzrə tədbirlərin hər birinin icrasının qiymətləndiriləcəyi əsas icra göstəriciləri əvvəlcədən müəyyən olunmuşdur ki, bu da Dövlət Proqramının daha uğurlu icrasına imkan yaradacaqdır.

## 7. Dövlət Proqramının maliyyələşmə mənbələri

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

7.1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aidiyyəti dövlət orqanları (qurumları) üçün müvafiq il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait;

7.2. büdcədənkənar fondlar;

7.3. yerli və xarici investisiyalar;

7.4. beynəlxalq təşkilatların maliyyə vəsaiti;

7.5. qanunla qadağan edilməyən digər mənbələr.

## 8. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramının son icra ili olan 2025-ci ildə aşağıdakı nəticələrin əldə edilməsi gözlənilir:

8.1. qida təhlükəsizliyinə dair norma və qaydaların mövcud beynəlxalq tələblərə uyğunlaşdırılması;

8.2. laboratoriya analizlərinin nəticələri ilə bağlı dəqiqlik göstəricisinin 95%-ə çatdırılması;

8.3. qida mənşəli zəhərlənmə hallarının sayının azaldılması;

8.4. qida və kənd təsərrüfatı məhsullarının (inkişaf etmiş ölkələrin bazarları da daxil olmaqla) ixracının artırılması;

8.5. ixrac olunan qida və kənd təsərrüfatı məhsullarından idxalçı ölkələrin imtina etməsi hallarının minimuma endirilməsi;

8.6. insanlar arasında zoonoz xəstəliklərə yoluxma hallarının sayının azaldılması;

8.7. bitki mühafizəsi vasitələrindən yanlış istifadə ilə bağlı yaranan zəhərlənmə hallarının azaldılması;

8.8. qida təhlükəsizliyi ilə bağlı aparılan fundamental və tətbiqi tədqiqatların sayının iki dəfə artırılması;

8.9. qida və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən sahibkarların nəzarət və tənzimləmə fəaliyyətindən məmnunluq dərəcəsinin yüksəldilməsi;

8.10. qida təhlükəsizliyi üzrə qabaqcıl idarəetmə sistemlərinin tətbiqinin iri müəssisələrdə 90 faiz, orta müəssisələrdə 50 faiz səviyyəsinə çatdırılması.

## 9. İcra, monitorinq və qiymətləndirmə

Dövlət Proqramının uğurla həyata keçirilməsi üçün əlaqələndirici dövlət orqanı işçi qruplar yaradacaqdır. İşçi qruplar prioritet istiqamətlər üzrə tədbirlərin vaxtında və səmərəli icrasına məsul olacaqlar.

Dövlət Proqramının tələb olunan alətlər, proseslər və digər vasitələrlə uğurlu icrası üçün Proqramın beynəlxalq metodologiyalara əsasən tərtib edilmiş qaydalar üzrə monitorinqi və qiymətləndirilməsi aparılacaqdır. Monitorinq və qiymətləndirmə aparılarkən tədbirlərin mahiyyəti üzrə icrasına, müvafiq prioritetlə bağlı gözlənilən nəticələrə və indikatorlara diqqət yetiriləcək, icra müddətinə uyğunluq yoxlanılacaqdır.

## 10. Tədbirlər planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı qurum | Digər icraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **10.1. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, qida təhlükəsizliyi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **10.1.1.** | "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi Xarici İşlər Nazirliyi | 2019 |
| **10.1.2.** | Sanitariya, baytarlıq və fitosanitar norma və qaydalarının beynəlxalq tələblərə uyğunlaşdırılması və (və ya) yeni norma və qaydaların hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2019 – 2022 |
| **10.2. Qida təhlükəsizliyi sahəsində infrastruktur təminatının yaxşılaşdırılması** | | | | |
| **10.2.1.** | Qida təhlükəsizliyi sisteminə daxil olan mövcud laboratoriyaların diaqnostik qiymətləndirilməsinin aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 |
| **10.2.2.** | Qida təhlükəsizliyi sahəsində mövcud laboratoriyalar şəbəkəsinin optimallaşdırılması, müasir tələblərə cavab verən yeni laboratoriyaların yaradılması və maddi-texniki təchizatının təmin edilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Əmlak Məsələləri Dövlət Komitəsi | 2019 – 2022 |
| **10.2.3.** | Qida təhlükəsizliyi sahəsində milli istinad laboratoriyasının yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 – 2020 |
| **10.2.4.** | Qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən laboratoriyaların milli və beynəlxalq akkreditasiyasının keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 – 2022 |
| **10.2.5.** | Qida Təhlükəsizliyi Agentliyinin aparatının və regional bölmələrinin maddi-texniki bazasının gücləndirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2021 |
| **10.2.6.** | Heyvan kəsimi məntəqələri və ticarət obyektlərində (bazarlarda, yarmarkalarda və s.) mövcud olan qida təhlükəsizliyinə nəzarət məntəqələrinin diaqnostikasının aparılması, onların optimallaşdırılması və modernləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | yerli icra hakimiyyəti orqanları | 2019 – 2023 |

| | | | | |
|---|---|---|---|---|
| **10.2.7.** | İdxal və ixrac əməliyyatları zamanı qida təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi məqsədilə gömrük rəsmiləşdirilməsinin aparıldığı gömrük sahəsində qida təhlükəsizliyinə nəzarət məntəqələrinin yaradılması imkanlarının nəzərdən keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC | 2019 – 2021 |
| **10.3. Qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi** | | | | |
| **10.3.1.** | Qida məhsullarının təhlükəsizliyi ilə bağlı risklərin qiymətləndirilməsinin elmi cəhətdən əsaslandırılması məqsədilə mövcud beynəlxalq və yerli elmi tədqiqat işlərinin məlumat bazasının yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Azərbaycan Milli Elmlər Akademiyası, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2025 |
| **10.3.2.** | Ölkədə qida mənşəli xəstəliklər üzrə təhlillər aparılması və məlumat bazasının yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2020 |
| **10.3.3.** | Qida Təhlükəsizliyi İnstitutunun elmi potensialının gücləndirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | | 2019 – 2020 |
| **10.3.4.** | Qida təhlükəsizliyi təlim mərkəzinin təsis edilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Maliyyə Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi | 2019 – 2020 |
| **10.3.5.** | Qida təhlükəsizliyi sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla, təhsilin müxtəlif pillələri üçün yeni müvafiq tədris proqramlarının hazırlanması | Təhsil Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, Səhiyyə Nazirliyi | 2019 – 2021 |
| **10.3.6.** | Qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən kadrların təlimə ehtiyacının qiymətləndirilməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Təhsil Nazirliyi | 2019 – 2025 |
| **10.3.7.** | İstedadlı gənclərin qida təhlükəsizliyi üzrə xarici ölkələrdə təhsil almaq imkanlarının genişləndirilməsi və müvafiq proqramların həyata keçirilməsi | Təhsil Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | 2019 – 2025 |
| **10.3.8.** | Qida təhlükəsizliyi sahəsində ixtisaslaşmış təhsil müəssisələri ilə | Qida Təhlükəsizliyi | Təhsil Nazirliyi | 2019 – 2020 |

| | | | | |
|---|---|---|---|---|
| | əlaqə yaradılması və tərəfdaşlıq mexanizminin qurulması | Agentliyi | | |
| **10.4. Qida təhlükəsizliyinin təmin edilməsi sahəsində elmi sübutlara əsaslanan risklərin təhlili sisteminin formalaşdırılması** | | | | |
| **10.4.1.** | Beynəlxalq təcrübə nəzərə alınmaqla, risklərin təhlili metodologiyasının və qaydasının hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Ədliyyə Nazirliyi | 2019 |
| **10.4.2.** | Qida məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti obyektləri ilə bağlı mövcud vəziyyətin araşdırılması və bu sahədə problemlərin müəyyənləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2019 – 2020 |
| **10.4.3.** | Qida məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti obyektlərində müəyyən edilmiş problemlərin obyektiv qiymətləndirilməsi üçün risk profillərinin hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2019 – 2020 |
| **10.4.4.** | Qida təhlükəsizliyini böhran vəziyyətlərində çevik qiymətləndirmə, idarəetmə, xəbərdarlıq prosedurlarının və fövqəladə halların, böhran vəziyyətinin idarə edilməsi planının hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2020 |
| **10.5. Qida təhlükəsizliyinin təmin edilməsi sahəsində qeydiyyat, təsdiq və sertifikatlaşdırma sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsi** | | | | |
| **10.5.1.** | Qida obyektlərinin və subyektlərin qeydiyyatı və təsdiqi ilə bağlı prosedurların beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi | 2019 – 2020 |
| **10.5.2.** | Qanunvericiliyə əsasən dövlət qeydiyyatına alınmalı olan qida məhsullarının (qida əlavələrinin, bioloji aktiv qida maddələrinin və s.) dövlət qeydiyyatının həyata keçirilməsi ilə bağlı yeni mexanizmin formalaşdırılması | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2019 – 2020 |

| | | | | |
|---|---|---|---|---|
| **10.5.3.** | Qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən qida subyektləri və obyektləri, habelə qida məhsullarının istehsalı və ticarət axınları üzrə məlumat bazasının yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2020 |
| **10.5.4.** | Baytarlıq, fitosanitar və qida təhlükəsizliyi sertifikatlarının verilməsi ilə bağlı mövcud sistemin beynəlxalq tələblər nəzərə alınmaqla təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Xarici İşlər Nazirliyi | 2019 – 2020 |
| **10.5.5.** | İxrac sertifikatlarının elektron qaydada verilməsi ilə bağlı iş aparılması və idxalçı ölkələr tərəfindən tanınması istiqamətində tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, Xarici İşlər Nazirliyi | 2019 – 2022 |
| **10.5.6.** | "Halal" sertifikatının verilməsinə dair mexanizmlərin formalaşdırılması və tətbiqi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi, Tövsiyə olunur: Qafqaz Müsəlmanları İdarəsi | 2019 – 2020 |
| **10.6. Qida təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması** | | | | |
| **10.6.1.** | Qida subyektlərinin və obyektlərinin risk göstəriciləri ilə bağlı məlumat bazasının yaradılması və risk qruplaşdırılmasının aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2025 |
| **10.6.2.** | Qida subyektlərinin və obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsi üçün mexanizmin formalaşdırılması | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2020 |
| **10.6.3.** | Qida məhsullarının, baytarlıq və fitosanitar nəzarəti tətbiq olunan yüklərin ölkəyə idxalına nəzarət üçün yeni mexanizmin hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC | 2019 – 2020 |
| **10.6.4.** | Qida təhlükəsizliyi sahəsində sınaq nümunələrinin götürülməsinə dair | Qida Təhlükəsizliyi | Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət | 2019 – 2025 |

| | | | | |
|---|---|---|---|---|
| | norma və qaydaların beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi | Agentliyi | Agentliyi | |
| **10.6.5.** | Qida zəncirinin bütün mərhələlərində məhsulların izlənilməsi sisteminin formalaşdırılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2022 |
| **10.6.6.** | İnsan sağlamlığı üçün təhlükəli hesab edilən və yüksək risk daşıyıcısı olan qida məhsullarının geri çağırılması və yığışdırılması ilə bağlı mexanizmlərin hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Dövlət Gömrük Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 – 2020 |
| **10.6.7.** | Xüsusi təyinatlı qida məhsullarının (pəhriz, uşaq yeməkləri və s.) istehsalına, emalına və dövriyyəsinə dair tələblərin və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi | 2019 – 2020 |
| **10.7. Heyvan sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması** | | | | |
| **10.7.1.** | Heyvanların identifikasiyası və qeydiyyatı sisteminin formalaşdırılması və tətbiqinin ölkə ərazisində mərhələli şəkildə həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2025 |
| **10.7.2.** | Heyvan sağlamlığı ilə bağlı risklərin idarə olunması mexanizmlərinin beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2020 |
| **10.7.3.** | Heyvan sağlamlığı sahəsində baytarlıq xidmətlərinin keyfiyyət səviyyəsinin beynəlxalq tələblərə uyğunlaşdırılması | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | 2019 – 2025 |
| **10.7.4.** | Heyvan mənşəli qida məhsullarında baytarlıq preparatları, hormon və antibiotik qalıqlarının monitorinqi proqramının hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2020 |
| **10.7.5.** | Kənd təsərrüfatı və ev heyvanlarının profilaktiki peyvəndlənməsinin təşkili | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | mütəmadi |
| **10.7.6.** | Baytarlıq təyinatlı antimikrob preparatlardan istifadənin və stress faktorlarının azaldılması istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | 2019 – 2020 |

| | | | | |
|---|---|---|---|---|
| **10.7.7.** | Balıq və digər su bioresurslarının qida təhlükəsizliyi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2020 |
| **10.7.8.** | Sahibsiz heyvanların sağlamlığına nəzarət mexanizminin yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları, Qeyri-Hökumət Təşkilatları | 2019 – 2020 |
| **10.7.9** | Heyvan sağlamlığı sahəsində bufer, kompartment, müşahidə, xüsusi və azad zonaların yaradılmasının qiymətləndirilməsi və müvafiq dəstək mexanizmlərinin hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Xarici İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2025 |
| **10.8. Bitki sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması** | | | | |
| **10.8.1.** | Əkintəyinatlı torpaq sahələrində bitki mühafizəsi vasitələrindən və aqrokimyəvi maddələrdən istifadəyə dair monitorinqlərin aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi | 2019 – 2021 |
| **10.8.2.** | Beynəlxalq təcrübə nəzərə alınmaqla, bitki sağlamlığı ilə bağlı risklərin təhlili mexanizminin yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2020 |
| **10.8.3.** | Zərərvericilərdən azad zonaların yaradılması imkanlarının nəzərdən keçirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi, yerli icra hakimiyyəti orqanları | 2020 – 2025 |
| **10.8.4.** | Bitki sağlamlığı sahəsində göstərilən fitosanitar xidmətlərin səviyyəsinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | 2019 – 2025 |
| **10.8.5.** | Bitki mühafizəsi vasitələrinin qeydiyyatı, dövriyyəsinə və istifadəsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Gömrük Komitəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC | 2019 – 2020 |
| **10.8.6.** | Bitki mənşəli məhsullarda aqrokimyəvi maddələrin və pestisidlərin qalıqlarının monitorinqi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi | 2021 – 2022 |

| | | | | |
|---|---|---|---|---|
| | proqramının hazırlanması və icrasının təmin edilməsi | | | |
| **10.8.7.** | Bitki mühafizəsi vasitələrindən və aqrokimyəvi maddələrdən normativlərə uyğun istifadənin təşviqi | Kənd Təsərrüfatı Nazirliyi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2025 |
| **10.8.8.** | Əsas kənd təsərrüfatı bitkilərinin zərərli orqanizmlərdən mühafizəsi üzrə inteqrir mübarizə tədbirləri sisteminin hazırlanması və tətbiqi | Kənd Təsərrüfatı Nazirliyi | Qida Təhlükəsizliyi Agentliyi | mütəmadi |
| **10.9. Qida təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət-özəlsektor əməkdaşlığının inkişaf etdirilməsi** | | | | |
| **10.9.1.** | Qida təhlükəsizliyi sahəsində dövlət-özəl sektor əməkdaşlığı üzrə platformaların yaradılması istiqamətində tədbirlər görülməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2019 – 2025 |
| **10.9.2.** | Özəl baytarlıq xidməti subyektlərinin yaradılmasının və inkişaf etdirilməsinin dəstəklənməsi | Kənd Təsərrüfatı Nazirliyi | | 2019 – 2022 |
| **10.9.3.** | Sahibkarlıq subyektləri tərəfindən qida təhlükəsizliyi üzrə idarəetmə sistemlərinin (HACCP və digər beynəlxalq standartların) və qabaqcıl fəaliyyət kodekslərinin (GAP, GHP, GMP və s.) tətbiqi ilə bağlı dəstək tədbirlərinin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | | 2019 – 2025 |
| **10.9.4.** | Qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin qida təhlükəsizliyi sahəsində qanunvericilik tələblərinin yerinə yetirilməsinə texniki dəstək göstərilməsi və xüsusi proqramların həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 – 2025 |
| **10.9.5.** | Baytarlıq-sanitariya və sanitariya-epidemioloji tələblərə cavab verən özəl heyvan kəsimi və satışı mərkəzlərinin yaradılmasının dəstəklənməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2020 |
| **10.10. Qida təhlükəsizliyi sahəsində müasir texnologiyaların və innovativ həllərin tətbiqi** | | | | |
| **10.10.1.** | Qida təhlükəsizliyi üzrə vahid elektron informasiya sisteminin yaradılması | Qida Təhlükəsizliyi Agentliyi | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2020 |

| | | | | |
|---|---|---|---|---|
| **10.10.2.** | Qida təhlükəsizliyi sahəsində elektron xidmətlərin təşkili və həmin xidmətlərin elektron hökumət portalına inteqrasiya olunması | Qida Təhlükəsizliyi Agentliyi | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2020 |
| **10.10.3.** | Aidiyyəti dövlət orqanlarına (qurumlarına) məxsus məlumat bazalarının Elektron Hökumət İnformasiya Sistemi üzərindən inteqrasiyasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Kənd Təsərrüfatı Nazirliyi, Vergilər Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2019 – 2021 |
| **10.10.4.** | Qida təhlükəsizliyi sahəsində nəzarətin informasiya texnologiyaları vasitələrindən istifadə etməklə aparılması istiqamətində tədbirlərin görülməsi | Qida Təhlükəsizliyi Agentliyi | | 2019 – 2025 |
| **10.10.5.** | Qida təhlükəsizliyi sahəsində mobil tətbiqlərin yaradılması və tətbiq edilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2019 – 2025 |
| **10.11. Qida təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi** | | | | |
| **10.11.1.** | Digər dövlətlərin qida təhlükəsizliyi üzrə səlahiyyətli qurumları ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsi, sertifikatlaşdırma, qeydiyyat və təsdiq nəticələrinin qarşılıqlı tanınması istiqamətində tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Xarici İşlər Nazirliyi | 2019 – 2025 |
| **10.11.2.** | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyini Avropa Komissiyasının səlahiyyətli qurum kimi tanıması istiqamətində tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Xarici İşlər Nazirliyi | 2019 – 2023 |
| **10.11.3.** | Qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (Codex Alimentarius, OIE, IPPC, WHO, FAO daxil olmaqla) əməkdaşlığın genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Xarici İşlər Nazirliyi | 2019 – 2025 |
| **10.11.4.** | Qida təhlükəsizliyi sahəsində beynəlxalq layihələrin həyata keçirilməsi və donor təşkilatların fəaliyyətinin əlaqələndirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | 2019 – 2025 |

| 10.12. Qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sağlam qidalanmanın təşviqi və istehlakçı hüquqlarının qorunması | | | | |
|---|---|---|---|---|
| **10.12.1.** | Qida təhlükəsizliyi sahəsinə ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | QHT-lərə Dövlət Dəstəyi Şurası | 2019 – 2025 |
| **10.12.2.** | İstehlakçıların qida təhlükəsizliyi baxımından hüquqlarının qorunması ilə bağlı mexanizmlərin təkmilləşdirilməsi və müvafiq sahədə aşkarlanan qanun pozuntularına operativ müdaxilə sisteminin işlənib hazırlanması | Qida Təhlükəsizliyi Agentliyi | Daxili İşlər Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 2019 – 2021 |
| **10.12.3.** | Qida məhsullarının konservləşdirilməsi, həmin məhsulların saxlanılması və istifadəsi zamanı sanitariya-gigiyena norma və qaydalarına riayət olunması ilə bağlı əhali arasında təşviqat və maarifləndirmə işlərinin aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2025 |
| **10.12.4.** | Sağlam və rasional qidalanma istiqamətində təşviqat işlərinin aparılması | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2019 – 2025 |
| **10.12.5.** | Xüsusi həssas əhali qruplarının (uşaqlar, hamilə qadınlar və s.) sağlam qidalanmasının təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi (xüsusi pilot layihələrin icra edilməsi və s.) | Qida Təhlükəsizliyi Agentliyi | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| **10.12.6.** | Məktəblərdə və məktəbəqədər təhsil müəssisələrində sağlam qidalanma ilə bağlı mövzuların tədrisi, müsabiqələrin keçirilməsi | Qida Təhlükəsizliyi Agentliyi | Təhsil Nazirliyi | 2019 – 2025 |